

Şəfiqə Şəfa

## NİGARANAM

Nigaranam aylardır...
Bir xəbər tuta bilsəm,
əhvalını soruşub,
bircə bilim necəsən?
Daha dözə bilmirəm,
qırılıb könül tağı,
kimdən səni soruşum,
kimdən alım sorağı?!
Düyünlənib köksümdə
sənsizliyə dolanmış
acı həsrət yumağı.
Tək bircə xoş xəbərin
gözlərimi saraltmış
qəm pasını axıdar.
Sarı saçlı payızın
sərin küləklərinə
qarışıb əsən ətrin
üzümə sığal çəkib
ürəyimi ovudar...
Hardasan ömrüm-günüm!
nigaranam səninçün...

## AĞ VƏ QARA

Bir yuxunun iki üzü,
Həm kabusu, röyasısan,
Bir qələmin iki rəngi,
Həm ağ, qara boyasısan.

Gah özgəsən, gah özümsən,
Gah sükutsan, gah sözümsən,
Gah ağrısan, gah dözümsən,
Gah həyatın mayasısan.

Həm külümsən, həm qorumsan,
Həm yaşımsan, həm qurumsan,
Həm zülmətim, həm nurumsan
Gözlərimin ziyasısan.

Sonsuz yolsan, sərt divarsan,
Bəzən qışsan, ya baharsan,
Bəzən dibsiz uçurumun
əlçatmaz bir qayasısan.

Ağ və qara boyağından
Gah yaş, quru sayağından
Yarı-yarı olmağından
yəqin bir gün doyasısan.

## UTANARSAN

Tənha ayaq səslərim,
güzgü önündəki monoloqlarım,
divara dəyib qayıdan səsim,
nə qədər aciz,
nə qədər bezdiricidir, bilsən,
yaşadıqlarımı,
şəkdiklərimi,
dözdüklərimi,
Özünü
mənim gözlərimlə görsən,
utanarsan...
məni üç metrlik,
beş addımlıq "məzar"a
diri-diri gömdüyündən
utanarsan...

## GÖRƏN...

Dirəndi tənhalıq üzümə yenə
Ömür qapısını açımmı görən?!
Əzrayıl libaslı qonaq əlindən
Baş alıb dünyadan qaçımmı görən?!

Gözümə zillənən kədər deyilmi?
Hardan tapdı yenə mənim izimi,
Sənmi qarışdırdın, yoxsa talemi
Hansınız ağartdı saçımı görən?!

Bəxtim yenə seçdi qara boyanı,
Bənzətdi zülmətə düzü-dünyanı,
Hicran küləkləri, həsrət leysanı,
Ovuda bilərmi acımı görən?!

## KAŞ Kİ YAĞIŞ OLAYDIM

Kaş ki yağış olaydım...
Yağaydım damla-damla,
tələsmədən – aramla.
Yağaydım gecələrə,
yağaydım gündüzlərə,
Dərələrə, düzlərə,
meşələrə, dağlara,
yaxına, uzaqlara
yağaydım dayanmadan,
hələ gün oyanmadan,
istinin qovurduğu qupquru səhralara
sərinlik gətirəydim,
Kədərin qarsıtdığı cadarlı ürəklərə
təskinlik gətirəydim.
Siləydim simalardan dünənin gileyini,
nurlu, xoş sabahlara əminlik gətirəydim.
Kaş ki yağış olaydım...
Toxunaydım həsrətin qurutduğu dodağa,
bir qızın gözlədiyi yollara səpiləydim,
Dönəydim baxışlarda donub qalmış leysana,
töküləydim yanağa,
axaydım yana-yana.
Süzülən hər damlamda bir ümidə dönəydim,
cücərəydim həyatdan küsənlərin qəlbində,
dönəydim nəğmələrə sevənlərin dilində.
Kaş ki yağış olaydım...
elə hər şeydən öncə
ayrılığı siləydim insanların ömründən.
Dönüb bir coşqun selə
nifrəti, xəyanəti,
yalan məhəbbətləri yuyub təmizləyəydim.
Hər damlam su yerinə səadət daşıyaydı,
sevgi dolu damcılar hər yana yayılaydı,
Nağılladakı kimi –
xeyir qalib gəlincə,
yağaydım tükənincə!

## TƏQVİMİN XÜSUSİ GÜNÜ

Təqvimin bu günü diqqəti çəkdi.
Xüsusi gün kimi haşiyələnmiş,
nəyi yada salmalıydı
qara boyaqla çərçivələnmiş,
vaxtını gözləyən bu qara rəqəm?
İşdən, qayğılardan bir az kütləşmiş
hafizəm dilləndi
Qəfil şimşək kimi çaxan yaddaşdan
zehnim təmizləndi
Gözlərim yumuldu xəcalətindən
Ürəyim utancdan səsini qısdı
axı necə unutdum ki
ilk məhəbbətin
xatirə günüdü, bu gün yasıdı
Canlandı ağ-qara təsvirlər bir-bir,
xəyalın gözümün önünə gəldi.
yerişin, duruşun, danışığın da
zəif yaddaşımın səninlə bağlı
tozlu guşəsində təp-təzələndi.
Sevdiyin nəğmələr, şirin kəlmələr
gah sırayla dindi, gah da növbəsiz
səsləndi, qarışdı, əvəzləndi,
Qəlbimdən xəfif bir gizilti keçdi.
amma heç bilmirəm bu duyğuları
necə adlandırım!
Bu nə həsrət idi,
nə qüssə, nə qəm,
başdansovdu bir ah qopdu köksümdən,
nə vaxtsa yaşanmış o günlər üçün
gözlərim yol çəkdi qısa müddətə.
Bəli, bu gün ilk sevgimin
öldüyü gündü,
sənsizliyin - unutdum
hansı ildönümüdü?
çətinliklə də olsa,
bu qara bayram üçün
gözlərimi yaşartdım.
Bir az heyfislənirəm,
bir az da düşündükcə
qərib hiss keçirirəm,
Acı təbəssüm qonur
biganə dodaqlara,
bir vaxtlar yaşanmış
çılğın bir sevda,
indi işarası qısa xatirə,
ani bir təəssüf halına düşüb.
Eh... təqvimin bu günü
Ötən məhəbbətin bağlı düyünü.
Qara haşiyənin köməyi ilə
unudulmuş eşqi yadıma saldım.
Qırmızı paltarda qara sevdamın
yasını saxladım.
Şirin gəncliyimin acı günləri
bir-bir, səhnə-səhnə canlana bildi.
Bəlkə gün gələcək həmin qara gün
qara qələmin də yadına düşməz.
Bu gün heç olmasa iş ilə bağlı
təqvimə baxaraq xatırlamışam,
Bir anlıq da olsa xəyala dalmışam.
bəlkə növbəti il qələm əvəzi
əlimdə körpəmin paltarlarına
başım qarışacaq,
bax onda bu sevginin özü bir yana
qara xatirəsi unudulacaq

## YAĞIŞ YAĞIR

Yağış yağır şırhaşır,
sanki damlalar qaçır,
bir-biriylə yarışır.
Elə bil yer ilə göy
həsrətli aşiqlərtək
göz yaşları axıdıb,
bir-birinə qovuşur.
Səma Dəli Kür kimi
yenə coşur, çağlayır.
Bəlkə dərdə düşübdür,
o da insanlar kimi
qüssələnib ağlayır?!
Qüvvət verib gözünə,
sevdiyi Yer üzünə
göz yaşları axıdır.
Ya da qəzəblənibdir
bu dünyanın əlindən,
leysanından, selindən
yağdırıb hər tərəfə
ildırımlar gücüylə
yaman hay-həşir salır,
hirsini yerdən alır
Yəqin göy də ölümlü
Adəm övladlarıtək
günahlarını yuyur.
Büllur kimi tərtəmiz
damcıların altında
təmizlənir, paklanır.
Sonra qızıl günəşin
şəfəqində əks olunub
yeddi rəngə boyanır,
lap təzə gəlin kimi
Gül-çiçəklə bəzənmiş
yatağında oyanır,
uzun bir ömür boyu
sevinc, səadət dolu
sabahlara boylanır!

## DARIXMIŞAM

Darıxmışam
gözünün xoş baxışı, rəngiyçün,
Darıxmışam
Səsinin həzin, bəm ahəngiyçün,
Pıçıltıyla dodaqdan
ürəyimə süzülən,
ən şirin kəlmələrdən
yağan söz çələngiyçün
Darıxmışam
saçının saçlarıma qarışan
zərif, meyxoş ətriyçün,
qələmim həsrət çəkir
sənə ithaf olunan
şeir, nəğmə sətriçün.
Darıxmışam...
içi səninlə daşan,
hərdən ürkək, utancaq,
hərdən həddini aşan
xəyallar ağuşunda
xumarlanıb uyuyam,
arzuların qoynunda,
əbədi eşq yolunda
quş kimi qanad açam.
Darıxmışam,
telefondan süzülən,
özgələrdən gizlənən,
gah qısılıb, qırılıb,
gah inci tək düzülən,
gah qüssəli, tələşlı,
gah da ki, şən səsinçün.
Darıxmışam,
Üzümdə, dodağımda gəzişən
şirin, nəm nəfəsinçün.
Ah... necə darıxmışam,
bu yasaq sevgimizdən
əzab çəkən üzünçün
inan, çox darıxmışam
mənə hər kəsdən əziz,
təkrarlanmaz, əvəzsiz
yalnız sənin özünçün.

